

# Dahilik zirvəsi

## Əsrlər keçəcək, nəsillər dəyişəcək, amma yenə də dövlət müstəqilliyimizlə ümummilli lider Heydər Əliyevin adı qoşa çəkiləcək

**Azərbaycan xalqının taleyüklü hadisələrlə dolu 34 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində ümummilli lider Azərbaycanı zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Heydər Əliyev büllur kimi saf əməlləri ilə bütün ömrünü doğma xalqına həsr etdiyinə görə dahilik zirvəsini fəth etmiş və əbədiyaşarlıq qazanmış, Azərbaycan tarixinə öz şərəfli adını qızıl hərflərlə yazmışdır.**

Ümummilli lider Heydər Əliyev böyük tarixi şəxsiyyət kimi Azərbaycanın firavan gələcəyi naminə daim çalışmış, əvəzsiz müdriklik göstərmiş qəlbində Vətən sevgisi, xalq məhəbbəti ilə dahilik zirvəsini fəth edə bilmişdir. Böyük rəhbər Vətəni, milləti qarşısında borcunu ləyaqətlə yerinə yetirən, XX əsrin ikinci yarısında Azərbaycanın milli azadlıq tarixi üçün yaddaş ömrü yaşayan şəxsiyyət olmuşdur.

Heydər Əliyev 34 ildən artıq bir dövrdə ölkənin taleyüklü məqamlarında bütün məsuliyyəti öz üzərinə götürərək Azərbaycanı bir dövlət və millət kimi tarixin sınaqlarından çıxarmışdır. Bununla da xilaskarlıq missiyasının daşıyıcısı olmuşdur.

Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də Milli Məclis "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul etdi və Azərbaycan müstəqil bir dövlət kimi özünü dünyaya bəyan etdi.

İnkişaf etmiş dövlətlər sırasına çıxmaq, Azərbaycanı dünyaya tanıtmaq imkanı əldə edildi. Lakin təəssüflər olsun ki, bu sevincimiz içərisində çox acılı, məşəqqətli günlərlə də rastlaşdıq. Müstəqilliyin əldə olunmasından sonra onu qoruyub saxlamaq ən ümdə məsələ idi.

1991-1993-cü illərdə müstəqillik yollarında çox böyük çətinliklər, eyni zamanda hələ 1988-ci ildən Ermənistan tərəfindən başlamış hərbi təcavüz ölkədə vəziyyəti daha da çətinləşdirdi. Çox təəssüf ki, bu illər ərzində xalqın qüvvəsini toplayıb düşmənə qarşı mübarizə aparmaq, beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmləndirmək əvəzinə, respublikamızın daxilində ayrı-ayrı qüvvələr hakimiyyət mübarizəsi ilə məşğul olurdular. Bax, belə bir şəraitdə xalqın, ölkənin güclü bir liderə ehtiyacı yarandı. Tarixi təcrübədən aydındır ki, ən kəskin məqamlarda, millətin taleyinin həll olunduğu zaman kəsiyində liderlərə böyük ehtiyac olur. Belə bir şəraitdə xalq üzünü böyük rəhbər Heydər Əliyevə tutdu. Xalq başa düşdü və yəqin etdi ki, onu bu çətin və ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi bacarıqlı, uzaqgörən, qətiyyətli bir şəxsiyyət çıxara bilər. Respublikanın düşdüyü bu çətin, çıxılmaz vəziyyəti, insanların təkidli tələbini nəzərə alan dahi rəhbər ikinci dəfə hakimiyyətə qayıtdı və bununla da Azərbaycan tarixinin, bərpa edilmiş məsuliyyətimizin yeni bir dövrü başladı.

Həmin dövrdə Azərbaycan cəmiyyəti üçün zəruri və həyati əhəmiyyət kəsb edən başlıca problem ondan ibarət idi ki, ölkədə anarxiya meyillərinin qarşısı alınsın. Bunun üçün kifayət qədər riskli addımların atılması zərurətə çevrilmişdi. Bu, hər şeydən əvvəl qətiyyət və siyasi iradə tələb edirdi. Ulu öndər qısa zamanda sübut etdi ki, vətəndaş müharibələri hakimiyyət uğrunda silahlı mübarizə hüquqi demokratiyaya gedən yol deyil. Ümummilli liderin baxışlar sisteminə görə, demokratiya üçün vacib olan başlıca şərtlər siyasi sabitlik və güclü dövlət hakimiyyətidir. Siyasi sabitlik olmadan cəmiyyətin digər problemlərini həll etmək mümkün deyildir.

Ulu öndər deyirdi ki, "Azərbaycanda hər bir şəxs, hər bir partiya, milli birlik, vətəndaş həmrəyliyi istiqamətində hərəkət etməli, fəaliyyət göstərməlidir. Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirmək yox, yaranmış sabitliyi daha da möhkəmləndirmək lazımdır. Çünki bu, Azərbaycanın yaşaması, onun müstəqilliyinin qorunması üçün ən əsas şərtdir".

Siyasi sabitliyin ardınca köklü islahatlar getməli idi və Heydər Əliyev bu istiqamətdə növbəti uğurlu addımlarını atdı. "Əsrin müqaviləsi"nin bağlanması, özəlləşdirmə və torpaq islahatlarının həyata keçirilməsi, mühüm qanunların qəbul edilməsi, əhalinin maddi rifah halının yaxşılaşdırılması, elmin, mədəniyyətin, təhsilin tərəqqisi məhz ölkədə əldə edilən sabitliyin nəticəsi idi.

Heydər Əliyevin milli dövlətçilik irsinin ən mühüm mərhələsini isə dövlət quruculuğu və demokratikləşmə prosesi kimi səciyyələndirmək olar. Ölkədə inzibati hakimiyyətin proseslərə tam nəzarət etməsi, yeni Konstitusiyanın qəbulu və məhkəmə hakimiyyətinin qurulması dövlət quruculuğu sahəsində atılan mühüm addımlar idi. Güclü dövlət hakimiyyətinin qurulması ilə demokratikləşmə prosesinin paralel şəkildə aparılması böyük əhəmiyyət daşıyır. Heydər Əliyev hər iki proses arasında balansı təmin etməklə ortaya analoqu olmayan siyasi model qoydu.

Ulu öndər Heydər Əliyevin qəbul etdiyi qərarlar ilk baxışdan qeyri-populyar görünə bilərdi. Lakin həmin qərarlar son dərəcə düzgün və bütün reallıqları nəzərə alan optimal, praqmatik idi. O, heç vaxt xalqa fantastik və populist vədlər vermirdi, əksinə real vəziyyəti və konkret şəraitdə əldə edilə biləcək nəticələri olduğu kimi təqdim edirdi. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmətim olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik, qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət və bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ulu öndər Azərbaycan dövlətçiliyini, xalqı fəlakətdən qurtardı, dövlətçiliyi möhkəmlətdi, onu çevriliş, qiyam cəhdlərindən uzaq tutaraq dirçəliş və inkişafa doğru yönəltdi, cəmiyyətdə özünə inam hissini bərpa etdi. Onun sayəsində çox böyük əzab-əziyyətlə əldə etdiyimiz müstəqilliyimiz dönməz və əbədi oldu. Ümummilli liderin siyasətinin bundan sonrakı və yüz illər boyu davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

Şübhə yoxdur ki, Heydər Əliyevin başladığı inkişaf yolu, onun dövlətçilik ənənələri davam edəcəkdir. Bu yolun heç zaman alternativi olmayacağıdır.

Ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də bu yola sadiqdir. O, mövcud reallıqları obyektiv qiymətləndirməyi bacarır, sosial sifarişə uyğun çevik qərarlar qəbul edir. Bu gün əsas vəzifəmiz müstəqilliyimizin mahiyyətini dərindən dərk etməkdir. Bütün çətinliklərə baxmayaraq, müstəqilliyimizin ən böyük sərvət olduğunu başa düşməkdir. Tam əminik ki, əsrlər keçəcək, nəsillər dəyişəcək, dövlət müstəqilliyimizlə ümummilli lider Heydər Əliyevin adı qoşa çəkiləcəkdir.

**Abbasyar Heydərov**
**YAP Xaçmaz rayon təşkilatının sədr müavini**